# ƏDƏBİYYATŞÜNASLIQ

**TƏNZİLƏ RÜSTƏMXANLI**
**filologiya üzrə fəlsəfə doktoru**
**AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**E-mail:azeriturk@mail.ru**

## AZƏRBAYCAN ƏDƏBİYYATINDA İSTİQLAL DÜŞÜNCƏSİNİN FORMALAŞMASINDA CƏNUB MÖVZUSU VƏ BÜTÖV AZƏRBAYCAN İDEYASININ TƏSİRİ

**Xülasə:**

Azərbaycanın ədib və yazıçıları, mütəfəkkir və filosofları, ruhani və ağsaqqalları millətin istiqlalında hamısı eyni fikri, eyni yolu dəstəkləmir, məqsəd eyni olsa da, onlar fərqli ideya və məfkurə istiqamətləri ətrafında birləşir, fərqli fəaliyyət proqramları təklif edir, elmi traktatlarda, bədii-publisistik əsərlərdə onu fərqli janr və üsullarla ictimaiyyətə çatdırmağa çalışırdılar.

Bu siyasi-ideoloji düşüncədə, bədii-estetik yanaşmada çoxvariantlılığa, çoxcərəyanlılığa, necə deyərlər, klassik plüralizmə və fikir müxtəlifliyinə gətirib çıxarır, maarifçiliyin tənqidi realizmlə, tənqidi realizmin romantizmlə çulğaşaraq ədəbiyyatda, sənətdə istiqlal ideyasının çoxobrazlılığını, çoxqatlılığını yaradırdı. İstiqlala uzanan siyasi yolların çoxşaxəliliyi bədii inikasın həm formasında, həm də məzmununda özünü göstərirdi.

XIX əsrdə demək olar ki, ölkənin bütün bölgələrində bir-birinin ardınca ədəbi məclislər yaranmış, onlar arasında sıx əlaqələr olmuş, bəzən eyni şəxs iki və daha çox məclisin üzvü olmuşdur. XIX əsrin iyirminci illərindən formalaşmağa başlayan milli düşüncə axtarışları ilə məşğul olan ədiblər son dərəcə mürəkkəb, ziddiyyətli, enişli-yoxuşlu yol keçməklə, nəhayət, həmin əsrin sonunda və XX əsrin başlanğıcında türk düşüncəsinə, türk təfəkkürünə gəlib çıxa bilmişlər.

**Açar sözlər:** *tarixi şərait, bütöv Azərbaycan ideyası, istiqlal düşüncəsi, vətənpərvərlik, milli ruh, cənub mövzusu, milli ideologiya.*

**Giriş.** Azərbaycanın milli istiqlal savaşı, xalqın müstəqil dövlətə nail olmaq uğrunda mücadiləsi heç vaxt yarımplanda, yəni imperiyaların coğrafi bölgüdən daha çox ideya, mənəviyyat və milli mənlik şüurunu parçalamağı nəzərdə tutan siyasi-ideoloji yarımmüstəvilərdə – Şimal və Cənub adlanan coğrafi məkanlarda fərqli şəkildə və məzmunda təzahür etməmişdir. Qədim ənənələrini yaşadan Azərbaycan xalqı ən mürəkkəb ictimai-siyasi, hüquqi-ideoloji basqı şəraitində belə öz dilini, dinini, adətini, bütövlükdə mənəvi dəyərlər sistemini qorumaqla yanaşı, həm də bu dəyərlər sistemi üzərində bərqərar olmuş milli-azadlıq ideyasını, müstəqillik və özgürlük ehtirasını, dövlətçilik idealını ruhunda və qanında yaşadıb, onun uğrunda hər dəfə ölməyə hazır olduğunu sübut etmişdir. Onu assimilyasiya etməyə yönəlmiş 200 illik rus və fars şovinizminin ehtimal etdiyi "böyük zaman faktoru" da, sonda nəinki milli-tarixi və mənəvi ənənəni millətə unutdura bilməmiş, əksinə hər iki sahildə insanların milli-mənəvi birlik və müqavimətini gücləndirmişdir. Heç bir sərhəd məftili, ordu, silah, hərbi texnika, aradan axan çaylar (hətta okeanlar olsaydı belə) və s. ikiyə bölünmüş bu xalqı bir-birindən ayıra, onları ruhən uzaqlaşdıra bilməmiş, əksinə sistem və rejimlər üzərindən uzanan mənəviyyat körpüsü ədəbiyyat, sənət, söz, səs adamlarının sayəsində daha da möhkəmlənmişdir. Həm SSRİ-dəki Stalin hakimiyyətinin, həm də İrandakı Pəhləvi rejiminin ən başlıca məqsədi bu xalqa öz kimliyini unutdurmaq - Sovet İttifaqında Midiya mənşəli, hibrid bir qeyri-türk etnos, İranda isə fars mənşəli "azərilər" adlı naməlum bir xalq yaratmaqla bu millətin milli-tarixi, milli-mənəvi bağlarını kəsmək, onları təkləmək olmuşdur. Ümumiyyətlə, türkə qarşı bu siyasət zaman-zaman aparılmış, necə deyərlər, onu parçalamaq tarixi dünyanın öz tarixi qədər

qədim olmuşdur. "Yaşar Qarayev yazır: "…"Daxili savaş" (içdən intriqa) hələ o vaxtdan türklərə qarşı fələyin qarğışı, qəzanın qəsdi və qərəzi olub, ya əcnəbinin əlində həmişə hazır saxladığı kəsərli silah? Hər halda "parçala və dalaşdır, hökm sür!" siyasətini türk əleyhinə Avropadan əvvəl Çin tətbiq elədi və böyük Hun səltənəti ikiyə ("Şimala və Cənuba") parçalandı. Lakin çox keçmədən həmin "parçalar"dan biri-Şimali hunlar Atillanın başçılığı ilə əvvəlkindən daha qüdrətli, daha möhtəşəm olan və qədim Romanın özündən bac alan səltənət kimi yenidən doğuldu" **(Qarayev 1996, s.73).**

Həqiqətdə də belədir. 1930-cu illərin ikinci yarısından başlanan bütün repressiv metodlara, ideoloji basqılara, ümumbəşəri bədii tərəqqini məlum məkanda sosializm realizmi adı ilə cilovlamağa, özündən əvvəlki bütün ədəbi irsi ideoloji müstəvidə "qara-ağ" prizmasından "saf-çürük" etməyə, ədəbiyyat nəzəriyyəsini vulqar sosioloji düşüncələrə tabe eləməyə yönəlmiş cəhdlərə baxmayaraq, xalq və onun istiqlal ideyasının bədii tərənnümçüsü olan Azərbaycan ədəbiyyatı bu amalların gerçəkləşməsinə doğru aparan milli birlik amacından imtina etməmiş, qeyd etdiyimiz illərdə belə, yəni sovet rejiminin həmin ən təhlükəli illərində, öz istiqlal ideyasını Cənub mövzusunda yazılan bədii nümunələrdə təcəssüm etdirmişdir. Məsələn, dövrün ən istedadlı şairi Səməd Vurğun 1935-ci ildə qələmə aldığı bir şeirində Təbriz gözəli xitabı ilə Cənubda yaşayan soydaşlarımıza müraciət edərək "Bilirəm ürəyin mənə bağlıdır" deyir və Arazın ayrı-ayrı sahilində ömür sürən, bir-birinə qovuşmaq haqqından məhrum olan eyni xalqın nağılvari məhəbbətindən danışaraq xəyalının Cənub üzərindən uçduğunu dilə gətirməklə, sanki, dəmir sərhədlərin xalq iradəsi, bütöv milli ruh qarşısında bir heç olduğuna işarə edirdi. "Bir ürəyin ikiyə parçalanmasından" kədərlənən şair Təbrizi "sıxlaşan dumanlar" içində gördüyündən kədərlənir, yoxsulluq üzündən ölən insanların faciəsini öz faciəsi kimi qəbul etdiyini bildirir və ideoloji nəzarəti üzərindən götürmək üçün yaşadığı cəmiyyətə yönəli eyhamlarını Təbriz obrazı üzərində cəmləyir. Ümumiyyətlə, Səməd Vurğun bu Ezop manerasından yaradıcılığında müəyyən hallarda istifadə etmiş və bu yolla zamanının fırtınalarından xilas ola bilmişdir. Məsələn, Y.Qarayev vaxtilə onun "Vaqif" pyesi haqqında yazırdı: "Nəzərə alsaq ki, "Vaqif" 1937-ci ildə yazılıb və 1938-ci ilin 5 oktyabrında tamaşaya qoyulub, onda burada təsvir olunan XVIII əsr hadisələrində 1937-ci ilə işarəni də tanımaq çətin olmaz" **(Qarayev 1996, s.488).** Və həqiqətən də Səməd Vurğun qeyd etdiyimiz şeirdə "Sizdə qış günüdür, bizdə bahardır" deyərək müəyyən həqiqətləri pərdələməyə çalışsa da, fəqət Cənubi Azərbaycan xalqının müasir həyatı ilə öz keçmiş həyatı arasındakı bənzəyişi ortaya qoymaqla müəyyən mətləblərə işarə edir, bir xalqı parçalayıb fərqli həyat və tale yaşamağa məcbur edənlərə - istər Şimalda, istər Cənubda olsun-öz etirazını bildirir və təsəvvür edin, 1935-ci ildə, yəni 1937-ci il fəlakətinə hazırlıq mərhələsində bir ürəyin "ikiyə parçalanmasına etiraz etməy"in nə qədər təhlükəli olduğu bəlli olduğu bir halda aşağıdakı misraları dilə gətirmək nə deməkdir:

Nədir bu həsrətin adı, ünvanı?
Baisin evində işıq yanmasın!
Ah, Araz, ah, Araz, vədimiz hanı?
Bir ürək ikiyə parçalanmasın.

Şair 1948-ci ildə qələmə aldığı "Körpünün həsrəti" şeirində körpünün adətən insanda vüsal, görüş, sevinc assosiasiya doğurduğunu, Xudafərinin isə, bunun əksinə olaraq, bir həsrət, hicran, ayrılıq, göz dağı olmasını önə çəkməklə dərin bədii təzad yaratmış, vətənin hər iki tərəfində insan haqlarının pozulduğunu, ümumiyyətlə, o zaman dünyada gedən proseslərin insan və ədalət məntiqinə uyğun olmadığını şair səmimiyyəti ilə duyub-yaşamaqla həyəcan hissi keçirdiyini bildirir və bu həyəcanını, daxili sarsıntılarını gizlətmir.

Araz qırağında dayandı qatar,
Elə bil qəlbim də dayandı bir dəm...
Sıxlaşdı göydəki seyrək buludlar,
Deyəsən, başıma dolandı aləm.

Səməd Vurğun 1950-ci ildə Bakıda rus dilində nəşr olunmuş "Cənubi Azərbaycan şairləri" kitabına yazdığı müqəddimədə Cənub təəssüratlarını, daha doğrusu, boş qalmış, həyatı sönmüş yurd üçün, o yurdun vətəndaşları üçün çəkdiyi ağrı-acıları oxucularla aşağıdakı şəkildə bölüşürdü:

"Arazın o tayındakı dağların, çılpaq qayaların ətəklərində bomboş bir kənd vardır. Mən heç olmazsa, bircə nəfər adam görmək, at kişnəməsi, it hürüşü eşitmək ümidi ilə uzun müddət bu kəndə baxdım. Lakin heyhat!.. qarşındakı bu kənddə heç bir həyat əlaməti yox idi".

Cənub mövzusu yaradıcılığından qızıl bir xətt kimi keçən, milli-tarixi fəlakəti ustalıqla lirik-poetik dildə ifadə edən və yeri gəldikcə hadisələrə milli hürriyyət mövqeyindən yanaşaraq bədii-siyasi münasibət bildirməkdən və qiymətləndirməkdən çəkinməyən digər ustad şairimiz Rəsul Rzanın şeirlərində isə, Təbriz laylası və nəğməsi məhzun, hüzünlü, divarları kor, "bulaqları gur", dodaqları isə susuzluqdan qurumuş bir sərgərdan səhra yolçusu kimi təsvir olunmuşdur. Şairin "Təbrizim mənim" adlı şeirində çağırış, hayqırtı deyil, dərdin təsviri, kədərin surəti ön plana keçmişdir, amma bu qəm-kədər də heç də əbədi ümidsizliyin, pessimizmin nəticəsi deyil, işıq axtaran insanın (Təbriz burada canlı insan kimi verilir) böyük yolda nəfəs dərməsi, özünə gəlmək üçün vaxt qazanması və bir də özünə hesabat verməsi mənasındadır. O, reallığı başa düşür, imperiyaların onun yolunu kəsib tarixin döngələrində girov saxlamasının fərqindədir, amma bütün bu əzablı yollar, əsr və qərinələr onun içindəki böyük mənəviyyatı-inamı, məhəbbəti, sevgini–öldürə bilməyib və əgər bu keyfiyyətlər ölməyibsə, bütün acı və fəlakətlərə baxmayaraq, haqq qalib gələcək.

Balaları sərgərdan,
Gəlinləri nigaran.
Qurtuluş yolları:
Məhbəs, dar ağacı, gülləbaran.
Dan yeri qan boyalı.
Ümidindən, arzusundan dönməyən.
Ocağında-ürəyində odu sönməyən .
Səhəri uzun əsrlərin yolunda yubanan,
Qardaşına həsrət, bacısına həsrət,
bayatıları-qədim məhəbbət.

Yaradıcılığı sərbəst şeirin klassik nümunəsi olan Rəsul Rza Cənub həsrətini, Cənub kədərini ifadə etmək üçün "Aşıq Yanıqlı"nın bayatılarından" adlı əsərində xalq şeirinin bu zərif, amma poetik tutumu çox geniş olan janrının imkanlarından istifadə edərək Arazın, Təbrizin ayrılıq, həsrət, acı, nisgil, göz yaşlarından ibarət olan bədii obrazını yaratmışdır. Onların bəzilərini nəzərdən keçirək:

Ağ dəvə düzdə qaldı,
Ovsarı bizdə qaldı,
Neçə arzum, həsrətim,
Dərdli Təbrizdə qaldı.
Araz yanıq dillidir,
Suyu necə lillidir,
Gah axır, gah dayanır
Görünür nisgillidir.

Müəllif "Yaralı Təbriz" şeirində bir çox şairlərin Şimal-Cənub müqayisəsi üzərində qurduğu təzadı zaman müstəvisi üzərinə gətirərək bir vaxt bağçaları, bağları çiçək, gül; küçələri, məclisləri, meydanları hay-həşirli, fədailərlə dolu olan şəhərdən əvvəlki mübarizə və mücadilə əhvali-ruhiyyəsini istəyir, onu sorğu-suala çəkərək deyir:

Oyanışlı günlərin
nə oldu,
hanı indi?
Gəldi qara günlərin,
Nə az bəxtiyar oldun,
Sevindin.
Söylə, Təbrizim,
söylə
Ulduzlu mavi göydən

sənə kim yanğı saldı?!

Əslində, bu sualın arxasındakı obyekti çox asanlıqla dəyişib, onu Bakının, yaxud Şimali Azərbaycanın istənilən bir şəhəri üzərinə gətirmək və yaxud ümumiyyətlə, poetik bir detalla dünyanın ən böyük imperiyasının daxili qatlarını açıb göstərmək - ədəbiyyatın, o cümlədən Azərbaycan ədəbiyyatının ən böyük üstünlüyü kimi Rəsul Rzaya da düşüncədəki həqiqətləri ən azı bədii şəkildə təcəssüm etdirməyə imkan vermişdir. Metafora, təşbeh, məcaz sistemi sovet repressiya maşınından qorunmağın və eyni zamanda millətə öz ruhunu dik saxlamağı aşılamağın yeganə üsulu olduğu bir dövrdə Cənub mövzusu sovet Azərbaycanının şairlərinin əsl söz səngəri, xalqla dialoq üçün yeganə mümkün bədii vasitəsi olmuşdur. Bu poeziyadakı nikbinlik, inam sovet Azərbaycanında xalq üçün son dərəcə vacib idi. Buna görə də Rəsul Rza reallığın acı mənzərələrini təsvir etdikdən sonra deyirdi:

İnanıram, keçəcək
matəmli günlərin də.
Açılacaq üfüqlər
bir aydın səhərin də.
Çəkiləcək üstündən
o zəhərli buludlar.
Doğulacaq arzular, umudlar.

Azərbaycan ədəbiyyatında "Cənub həsrəti"motivinin ilk qüdrətli ifadəçisi, daha doğrusu, hələ 30-cu illərin ortalarından başlayaraq bu mövzunu sovet ədəbiyyatına gətirən və onu ədəbi-siyasi xəttə çevirməyi bacaran istedadlı şair Süleyman Rüstəmin Cənub həsrətinə aid şeirləri onun siyasi-vətəndaşlıq lirikasının üzvi hissəsi olmaqla bərabər, janr-obraz özünəməxsusluğu, poetikası, üslubi koloriti ilə də müəyyən bir spesifikliyə malik olmuşdur. Bu şeirlərdəki hüzn və həsrət motivləri ənənəvi obraz və bədii ifadə vasitələri, eyni zamanda şifahi və klassik ədəbiyyata məxsus formalarda təzahür edərək qısa müddət ərzində hər iki tərəfdə xalq ruhundakı yanğının tərcümanı olmuşdur. Şairin Cənuba həsr olunmuş "Dəymə", "Şair", "Öz Gülüstanım" kimi qoşmalarının lirik qəhrəmanının bütün xüsusiyyətləri-xarakteri, əhvali-ruhiyyəsi, düşüncələri – onun milli zəmində formalaşmış və bütün taleyi ilə vətənə, yurda, o cümlədən xalqının zaman-zaman ruhunda yaşatdığı mənəvi dəyərlərə bağlı bir insan olduğunu, bununla bərabər milli mücadilə aparmaq üçün hələ zəif olduğunu, daha doğrusu ikiyə bölünmüş Azərbaycanın passiv bir parçası olduğunu nümayiş etdirirdisə, "Qardaşımın dərdi", "Getmə", "Əllərin qoynunda qalmayacaqdır" şeirlərində "cənublu qardaş" özü söz alır, öz milli "mən"ini bəyan edərək, gələcəyə inamını və bu inam uğrunda çarpışmaya hazır olduğunu bildirirdi. Obrazın dinamikası, bədbinlikdən nikbinliyə doğru hərəkəti Cənubda milli istiqlaliyyət ideyasının nəinki sönmədiyini, hətta yüksələn xətt üzrə davam etməkdə olduğunu sübut edirdi. Həm də bu ruhu təkcə şairin qoşmalarında deyil, onun klassik üslubda yazdığı şeirlərdə hiss edirik.

Kaş mən eşidəydim ki, ey insan, gözün aydın,
Başlandı o tayda yeni dövran, gözün aydın.

S.Rüstəm "Ayrılıq mahnısı" şeirində Araz sahilində dayanıb söhbət edən iki qardaşın son görüşünü, ayrılıq məqamını təsvir etməklə nə qədər kədərli, məhzun səhnə yaradırsa, şeirdə problemin kökünün ortaya gətirilməsi onun bədii qayəsini, ideya-bədii dəyərini bir o qədər artırır, vətəndaş-şair mövqeyini bütünləşdirir.

Bir oldu ki, sənin, mənim düşmənim
Səni məndən, məni səndən ayırdı.
Bölünməzkən, yurdum, yuvam, məskənim,
Bir ürəkli bir vətəndən ayırdı.

Azərbaycanda siyasi lirikanın ən görkəmli nümayəndəsi olan Süleyman Rüstəmin partiyalı və sovet ideologiyalı mövqeyinə baxmayaraq, o, ömrünün sonunadək Cənubda istiqlaliyyət bayrağının yüksələcəyinə, xalqın müstəmləkə istibdadından azad olacağına inanmış və poeziyasının son akkordlarını da bu ritm üzərində başa vurmuşdur:

İçdiyim andımı pozan deyiləm,
Pozarsam, deməli ozan deyiləm.

Təbriz deyildimi, susan deyiləm
Torpaq altında da dinəcəyəm mən.

Yaşar Qarayev Süleyman Rüstəmin yaradıcılığında çıxan ümumi nəticəni nişan verərkən bu faktı xüsusi qeyd etmişdir: "… qəlbən inandığı, əbədi könül bağladı "leninçi kommunist ideallara" sədaqətindəki sabitlikdə o, ömrünün son gününə, öz partiyalı, siyasi lirikasının son sətrinə qədər fenomen olaraq qaldı.

Süleyman Rüstəmin yalnız müharibə dövrü şeirləri və ömrü boyu bütün şair həmkarlarından daha artıq sadiq qaldığı "Cənub" mövzusunda əsərləri milli bədii ənənənin əbədi, klassik axarına məxsus təmayülü yüksək səviyyədə təmsil etmiş və poeziya tariximizdə şairin mövqeyini şərtləndirmişdir" **(Qarayev 1996, s.73).**

Bu poeziya sonrakı dövrdə, daha doğrusu, XX əsrin 50-ci illərindən sonra, xüsusilə 60-80-cı illərdə daha böyük vüsət götürərək Sabir Rüstəmxanlı, M.Araz, X.Rza, N.Xəzri, Ə.Kürçaylı, Q.Qasımzadə, N.Həsənzadə, A.Zeynallı, C.Novruz, Məmməd İsmayıl, Məmməd Aslan, habelə yaradıcılığı bilavasitə Cənubi Azərbaycanla bağlı olan B.Azəroğlu, Ə.Tudə, S.Tahir, M.Gülgün, H.Billuri, İ.Cəfərpur və başqalarının əsərlərində vətəndaşlıq mövqeyinin bir növ ifadəsinə çevrildi. Həm də bu nümunələr 200 illik bir imperiya əsarətinin nəinki bir xalqı parçalamağa, onun şüur və mənəviyyatını bölməyə qadir olmadığını göstərdi, üstəlik, dünyanın ən böyük tarixi-siyasi ədalətsizlik faktının təməl qatını təşkil etməklə onu unudulmağa və millətin bütövlük uğrunda mübarizəni sönməyə qoymamışdır.

1960-1980-ci illərdə Cənub mövzusu məzmun və mahiyyət, ideya-estetik baxımdan fərqli mərhələyə daxil olaraq, əvvəlki həsrət, hicran, ayrılıq motivlərinin və kövrək duyğuların təzahürü olan lirik-romantik poeziya çərçivəsini genişləndirərək daha çox ümumi istiqlal müstəvisi üzərində inam, qətiyyət ifadə edən və eyni zamanda yeni yaranan əməli addımları vəsf edən poeziyaya çevrilməyə başladı. İndi lirik qəhrəman dərdi-qəmi, hüznü-matəmi təkcə yaşamır, daxili çırpıntılarını öz içində boğub saxlamır və yaxud onu ünvansız şəkildə pıçıldamır, indi Şimalla-Cənub arasında poetik dialoqlar gedir, xitab obyektləri dağlardan, çaylardan, yollardan konkret insanlara keçmişdir. Hətta 1960-cı illərəqədərki Cənub şeirlərində aparıcı olan xəyalpərəst və kövrək lirik qəhrəman belə yeni dövrdə ideoloji müqaviməti qıraraq düşüncələrində sərbəstləşmiş, hadisə və proseslərə tabular nöqteyi-nəzərindən yox, ictimai-mənəvi dəyərlər baxımından dəyər verməyə başlamışdır. Təbii ki, bu məsələdə Cənubun nəhəng şairləri Məhəmmədhüseyn Şəhriyar, Səhənd, Həbib Sahir və digərləri ilə yaranan ilk canlı əlaqələr, məktublaşmalar böyük rol oynamış və hər iki tərəfdə poeziyanın bir–birinə yaxınlaşmasına, ümumi mövzuların yaranmasına, milli "mən"in təsdiqinə yönəlmiş, gen və qan yaddaşını oyadan mənəvi bütövlük tendensiyasının güclənməsinə səbəb olmuşdur. Bu illərdə xüsusi fəallaşmış və narahat axtarışları ilə diqqəti cəlb edən Azərbaycan ədəbiyyatı bütövlükdə tarixin, yaddaşın, müasirliyin yaratdığı imkandan istifadə edərək Zaman-Milli "Mən" və şair fərdiyyəti problemini həll etməyə çalışdığından, istər-istəməz milli istiqlal düşüncəsi üzərinə gəlirdi. Həm də bu proses paralel şəkildə, daha doğrusu vəhdətdə, yəni Cənubda Şəhriyarın istiqlal hayqıran "Azərbaycan" şeiri, "Heydərbabaya salam" poeması ilə, Şimalda isə əksər 60-cıların yaradıcılığı ilə təzahür edir. Şəhriyar, ümumiyyətlə, bu dövrdə bir bütövlük, vəhdət simvolu kimi üzə çıxıb, əksər şairlərin diqqətini Cənub mövzusuna çəkməklə, ədəbi-ideoloji prosesi milli niyyət və milli ideyaya istiqamətləndirdi. Azərbaycanın istiqlal şairi Xəlil Rza o dövrdə ustad Şəhriyarın Bakıya nəzərdə tutulan gəlişini "Gözün aydın, Azərbaycan" şeirində aşağıdakı kimi mənalandırırdı:

Sığmır yatağına nə Araz, nə Kür,
Xəzərə qəlbimdən Xəzər tökülür.
Ayrılıq sədləri lay-lay sökülür
Yurdumun yarısı mənə dar gəlir.
O tayda bir ataş, bir günəşdi o,
Arazın üstündən dalğın keçdi o,
Baxdı… gözlərilə nəhri içdi o,
Sərhədlər, məftillər tarimar gəlir.

"Həm ayrılıqda fərd, həm də bütövlükdə xalq, Vətən miqyasında mənəvi vəhdət, tamlıq və

bütövlük axtarışları altmışıncı illərin siyasi lirikası üçün səciyyəvi poetik ehtiraslardan biridir…Bütünlüklə xalqın tarixinə və taleyinə bədii maraq altmışıncı illər şeirində yenə də davam edir və İranda şahlıq və mütləqiyyət əleyhinə azadlıq mübarizəsinin vüsət tapması ilə əlaqədar olaraq bu meyl – Cənub mövzusu xüsusən yetmişinci illərin poeziyasında daha da güclənir" **(Qarayev 1996, s.511).**

Həqiqətən, 70-ci illər ədəbiyyatında Cənub mövzusuna toxunmayan, bu mövzunun bədii siqlətindən yan keçən, onu milli-mənəvi tamlığın, bütövlüyün simvolu kimi obrazlaşdırmayan şair demək olar ki yoxdur. Sənətkarlarımız daim müqəddəs, əbədi, yekparə Azərbaycanı tərənnüm etmiş, yuxarıda qeyd etdiyimiz kimi, hətta sosial-siyasi münasibətlərin ədəbiyyatın qəsdinə durduğu bir vaxtda belə bu mövzunu unutmamış, bu sahədə ədəbi tənqidi, ədəbiyyat tarixini çox-çox üstələmişdir. Cənub mövzusu Azərbaycan poeziyasının, o cümlədən şifahi ədəbiyyatının aparıcı qolunu təşkil etdiyi 70-ci illərdə Əziz Mirəhmədov Arazın o tayındakı zəngin ədəbiyyatın tədqiqindəki süstlükdən, həmin ədəbiyyata laqeyd münasibətdən şikayətlənərək yazırdı: "İş ondadır ki, mütəxəssislər İran Azərbaycanının ədəbiyyatı ilə ancaq təsadüfdən-təsadüfə məşğul olub, çox vaxt kiçik məqalələr, xəbərlər yazmaqla kifayətlənirlər" **(Mirəhmədov 1978, s.233).**
Doğrudan da, 70-ci illərdə poeziya artıq cəmiyyətdə ictimai fikir və düşüncənin, tarixi-siyasi proseslərə sosial münasibətin meyarı kimi ictimai sifarişi daha dərindən duymağa, yeni əsərlərdə onu ifadə etməyə, necə deyərlər, mənşə və köklə xalqın əlaqələrini bərpa etməyə cəhd edir və bu məsələdə bütün ictimai və humanitar elmləri qabaqlamışdı. Bu dövrdə Cənub mövzusu ilə bütövlükdə ədalətsiz tarixi-siyasi akta üsyan edən görkəmli sənətkarlarımızdan biri Məmməd İbrahim imzasını dəyişərək şeirlərini Məmməd Araz kimi təqdim etməyə başlamışdı. O, bununla mövzunun aktuallığını, milli –mənəvi zərurətini bir daha diqqətə çatdırırdı. Akademik İsa Həbibbəyli şairin yaradıcılığında bu prosesi xüsusi qiymətləndirərək yazırdı: "Məmməd Araz bütöv, böyük Vətənin nəğməkarıdır. "Araz axır" poemasında, "Oxuyan Təbriz", "Şəhriyar gəlmədi", "Bu gecə yuxuda Arazı gördüm", "Araz dili", "Araz üstdə Çinar gördüm", "Qalır hələ", "Araz yadıma düşüb", "Arazın işıqları", "Sərhəd çəpərləri", "Mən Araz şairiyəm" şeirlərində bütöv Vətən duyğusu mənalandırılmışdır. Məmməd Araz qələmindən çıxmış "Oxuyan Təbriz" (1969) şeiri Azərbaycan poeziyasında Cənub mövzusunda yazılmış ən dəyərli və təsirli şeirlərdən biridir" **(www.anl.az/down/meqale/edebiyyat/2014/.../358971.htm).**

Ümumiyyətlə, Cənub mövzusu həm də uzun illərin qadağan və yasağından sonra yaradıcı insanın mənəvi varlığını ümummilli yaddaşla bağlayan, bədii prosesi bütövlükdə səciyyələndirən və bir növ ədəbi nəsilləri birləşdirən əsas, ümumi və müştərək mövzulardan birincisi idi. O, millətin mənəvi bütövlüyünü, gen və qan yaddaşını, onun tarixlə, köklə ilə əlaqəsini müəyyənləşdirir, ona özünü tapmaqda, tanımaqda, ifadə və təsdiq etməkdə kömək edirdi. Yaşar Qarayevin dediyi kimi, həm ayrılıqda fərd, həm də bütünlükdə xalq, Vətən miqyasında milli vəhdət, tamlıq və bütövlük axtarışları daha çox bu mövzuda özünü büruzə verirdi. Onu da qeyd edək ki, Cənub mövzusu Pişəvəri hərəkatından sonra Azərbaycan ədəbiyyatında iki xətt üzrə-bir tərəfdə, Güneydən gələn şair və yazıçıların simasında İran istibdadına, şahlıq rejiminə nifrət və inqilabi əhvali-ruhiyyənin güclənməsi ilə, digər tərəfdə, yəni şimallı yazarların yaradıcılığında daha çox milliləşmənin, milli vəhdət, milli birlik düşüncəsinin təzahür tapması ilə inkişaf edirdi. Zaman bu siyasi lirikanın öz obrazlarını, öz bədii fiqurlarını, ifadə vasitələrini yeniləşdirir, ona yeni təmayüllər, həm də siyasi mühitin yumşalması ilə paralel şəkildə genişlənən və güclənən poetik ehtiras burulğanını təcəssüm etdirməyə imkan verən pafoslu təmayüllər üzrə inkişafına şərait yaradırdı. Biz bu inkişafı, genişlənməni, poetik fikrin dərinləşməsini-Arazdan başlanan lirik duyğuların polad misralara çevrilməsini Məmməd Araz yaradıcılığında bütün təfərrüatı ilə görə bilərik. Akademik Yaşar Qarayev Vaqif Yusiflinin "Məmməd Araz dünyası" kitabına yazdığı "Yaddaş poeziyası" adlı ön sözündə belə bir fikri vurğulayır: "Əsl, həqiqi, böyük poeziya ümumbəşəri yaddaşdır. Məncə, Məmməd Araz şeiri də düşüncədə, əxlaqda və qeyrətdə yaddaşın ifadəsidir. Poeziyanın dumduru, şəffaf bulağı başına o, Arazın bulanıq və yaralı sahillərindən ayrılıb gəldi, özü ilə poeziyaya Arazın dərdini, ağrısını da gətirdi. Özü də tarixdən və təbiətdən, ana dilindən, bayatılardan, folklordan axan bir Araza döndü - Məmməd Araza!" **(Yusifli 1994, s. 14).**

Araz sahilində dünyaya göz açan şair ilk mərhələdə uşaqlıqdan eşitdiyi, duyduğu, hətta ağrı-

acısını yaşadığı nisgili Fizuli qəmi ilə yoğurub poetik misralara, əzaba, göz yaşına dolmuş beytlərə, qanla suvarılmış şeir nümunələrinə çevrib şair "Mən"ində milli faciəni ifadə edərək "Arazın nəğməsi" şeirində yazırdı:

Sən canlı tarixsən doğrudan, Araz,
Səsində min ildən qəm-qubar qalıb.
Sinəndə dil açan bu yanıqlı saz,
Ulu babalardan yadigar qalıb.

Səndə təmkinlik də, dəlilik də var,
Dağlarda pələngsən, düzlərdə quzu.
Bəlkə sularında dil açıb ağlar,
Leyli məhəbbəti, Məcnun arzusu?

Ümumiyyətlə, Cənub həsrəti Məmməd Araz yaradıcılığına həyatın içindən, oxuduqlarından, gördüklərindən, eşitdiklərindən deyil, qan yaddaşından, genetik kökdən gəlmişdi. O, təkcə Arazı görəndə millətin ikiyə parçalanmasını xatırlamır, dünyanın harasında olursa olsun, çaylar onu kövrəldir, onda ayrılıq, hicran qüssəsi oyadır. Cənubi Azərbaycan doğulmuş Söhrab Tahirə həsr etdiyi "Araz yadıma düşüb" şeirində Moskva çayının sahilində gəzən şair xəyalən Arazın sahillərinə uçur, onun sularında yuyunub durulur. Həm də Moskva və Moskva çayı nə qədər gözəl, cazibəli olsa da, ona Cənub həsrətinin simvolu olan Araz qədər doğma deyil, üstəlik, şairin yol yoldaşı olan Söhrab Tahir də qürbətdəki vətən nostaljisi kimi bu hiss və duyğunu daha da dərinləşdirərək lirik qəhrəmanın düşüncələrinin, mənəvi aləminin milli məhvərini tamamlayır. Amma bu məhvərin mərkəzində uzun illər Araz dayanır, Araz şairin dialoqlarında tərəf-müqabil kimi çıxış edir, Araz cansız deyil, canlıdır, insandır:

Sahilin – dodağıma,
Ləpən dilimə bənzər.
Sahil boyu çinarlar,
Yazan əlimə bənzər

Bu obrazlaşma, metafora "Araz dili" şeirində öz ifadəsini daha mükəmməl, daha bitkin şəkildə tapmış, həm də əvvəlki şeirlərdən fərqli olaraq üsyankar formada özünü büruzə verməyə başlamışdı. Bu şeirdə şair Məmməd Araz ilə Araz çayı qarşı-qarşıya dayanır; şair Arazı, Araz da onu qınayır, hər kəs özünü haqlı sayır. Onların mübahisəsi hər tərəfin "mənim" dediyi, fərqləndirdiyi, böldüyü bir dərə üstündədir ki, heç biri "Mən səninəm", "sən mənimsən" deyə bilmir. Yaxşı ki, onların səsini özlərindən başqa kimsə duya bilmir və xoşbəxtlikdən nə qədər mübahisə etsələr də, sonda bir-birlərini başa düşür, dil tapıb danışa bilirlər. Bu anlaşmadan sonra şair kükrəyib daşaraq Araz dilində şər qüvvələrə müraciət edir:

Səninləyəm, şər oğlu şər, səninlə,
Özü tikan, adı bəşər, səninlə.
Bu sərhəddə çox təzadlar görmüşəm,
Yad doğmalar, doğma yadlar görmüşəm

Araz çayının dili mürəkkəbdir, hərdən sakit, lal olsa da, hərdən kükrəyib daşır, qabağına keçən nə varsa vurub yıxır, süpürüb dərələrə doldurur. Zamanı gələndə o, şər qüvvələri də öz ağuşuna alıb dərin dərələrdə qərq edəcək, "nə itin dana kimi böyürməsinə", "nə dananın it kimi hürməsinə" baxmayacaqdır. Lirik-romantik duyğuların təlatümünün bu pik səviyyəyə çatdığı anlarda biz Məmməd Arazın keçmişə, dünənə çılğıncasına üsyan edərək tarixi müttəhimlər kürsüsünə oturtduğunu və bununla bərabər, həmin tarixdən ibrət dərsi götürməklə, onu saf çürük etməklə milli birlik, milli vəhdət əsasında formalaşan vahid bir vətən amalı ilə yaşayan vətəndaş – şair olduğunu görürük.

...Əgər ki, siz
Bu məsələ qol çəkdiniz!
Sonra, sonra hansınızsa,
Xalqa gələn bir qəzadan,
Öz başını yana əydi,

O qəza bir topa dönüb,
Səttar xanın tifaqına
Yaman dəydi.

Məmməd Araz üçün Azərbaycan həmişə bütöv olub, heç vaxt bölünməyib, o özünü o taylı, bu taylı Vətənin bir parçası hesab edib.

Gülüm, bir də görüşünə yubansam,
Adımı tut harda dağlar dumansa.
Gözünü sıx, hansı daşda su yansa,
O, daş altda Məmməd Araz yaşayır.

Ikiyə bölünmüş Azərbaycanın nisgilini böyük bir yanğıyla ifadə edən, Vətən taleyini öz taleyi kimi yaşayan, yaradıcılığının mayasını, mahiyyətini parçalanmış xalqın ağrı-acısı təşkil edən, həm fiziki, həm də mənəvi mənada Azərbaycanın hüquqları uğrunda mücadilənin bayraqdarı olan şairlərimizdən biri də Söhrab Tahirdir. Söhrab Tahirin Güney Azərbaycan dərdi üstə köklənmiş poeziyasında, Şimali Azərbaycanda yaşayan əksər şairlərdən fərqli olaraq, milli-tarixi faktların bədii-fəlsəfi təcəssümü öz yerini müasir siyasi proseslərin poetik həllinə vermişdir. O, tarixi ittihamdan qaçır, bir tərəfdən Güneyin şəhərlərini, kəndlərini, təbiət mənzərələrini, əsrarəngiz gözəlliyini tərənnüm edirsə, digər tərəfdən ayrılığın faciəvi nəticələrini ibrətamiz detallarla təsvir edərək gözəlliklə ictimai reallığın kəskin bədii təzadını yaradır və bununla da bədii təxəyyülün faktoloji əsasını mətnə daxil etmiş olur. Onun şeirlərində elə bir detal, elə bir bədii vasitə yoxdur ki, ümummilli dərdin, bir xalqın iki yüz illik faciəsinin ifadəçisi olmasın:

İki bölünməkdən elə qorxmuşam,
Çöpü də ikiyə bölmərəm daha,

- deyən şair təkcə tarixi proseslərdən, onun yaratdığı ədalətsizliklərdən deyil, həm də günün reallığından, onun var olmasına səbəb olan milli ətalətdən, dözüm və səbrdən nəticə çıxarmağa, haqq uğrunda meydana atılmağa səsləyir.

Qır atının yalmanı qan, yalı qan,
Azadlığın taleyi qan, yolu qan,
Qılıncının qabağı qan, dalı qan,
Səbr evinin quyuları dolu qan
Şəhid olmuş düzlərində ulu qan...

Onu da qeyd edək ki, Söhrab Tahir Cənub problemini heç vaxt lokal-milli çərçivədə qoymur, Asif Atanın qeyd etdiyi kimi, onun Vətən dərdi Dünya dərdinin bir hissəsi, Dünya dərdi kimi qlobal mahiyyət daşımışdır: "Dünya dərdini Vətəndə çəkmək gərək – Vətən dərdidir əslində dünya dərdi, dünya boyda dərdi var Vətənin, Vətən dərdinə qalan dünya dərdinə qalanır; Vətən taleyi keçir insan ömründən, Vətən yolu keçir insan ömründən, dünya boyda yük düşür Vətənin çiyninə, Vətəndə başlayır və Vətəndə qurtarır Dünya. Dünyəvi dərddir dərdimiz, dünya miqyaslıdır kədərimiz, dünya boyda qara göynəyir sinəmizdə, dünya boyda ağrı yanır qəlbimizdə, bir dünya dərdik!" (1). Söhrab Tahirin şeirlərinin ideyası, qayəsi, məzmunu və ruhu istiqlal və azadlığa istiqamətlənməklə və bu yolda çağırışlar edən bir poeziya olmaqla bərabər, həm də bu yola çıxanlara nurani-ağsaqqal nəsihətləri ilə yol göstərməyə, özü də didaktik-nəsihət məzmununa malik olmalarına baxmayaraq, poetik pafosa görə oxucunu yormadan irəliyə yürüş etməyə çağırır:

Bundan sonra, ey inamlım,
İnananda yaxşı inan.
İnamını xalça etmə
Ayaq altda atam, anam!

"Başına gələn başmaqçı olar" ifadəsini daha poetik səslənən "iki ibrət sırğası" ilə əvəz edən şair sadəlövhlüyün, inamın ağrısını, fəryadını insanların uzun illər yaşamasını aşağıdakı kimi bədiiləşdirir:

İki yanın fəryadıyam,
İki sahil yarğası
İki yandan iki qürbət,
İki ibrət sırğası.

Bir sözlə, Xalq şairi Söhrab Tahir öz ömrünün hər saatını, hər anını böyük amalların, milli idealların, xalq arzusunun yolunda şam kimi əridə-əridə yaşayan, iki Azərbaycan arasında mənəvi körpü olan və sənətkar fədakarlığının əsl nümunəsini yaradan bir qələm adamı kimi bütün zamanlarda azadlıq mücadiləsi uğrunda döyüşə hazır olan insanların yanında olub, onlara güc-qüvvət, ümid, dözüm hissi aşılayıb, "gücü döyüşlərə çatmayan adamlara", "özünü yuxuya verən millətə" "özünə dön" təpəri aşılayıb.

Ümumiyyətlə, S.Tahir ötən əsrin 70-80-ci illərində bütöv bir nəsilin vətəndaşlıq müstəvisində tərbiyəsində, onların baxış və mövqelərinin formalaşmasında, milli istiqlal ideyaları ilə səfərbər olmasında əsl məktəb rolu oynamışdır. Xalq şairi Sabir Rüstəmxanlı şairin "Seçilmiş əsərləri"nə yazdığı "Azadlığa içilən and" adlı ön sözündə çox haqlı olaraq yazır: "... Söhrab Tahir poeziyası təkcə çağdaş Azərbaycan şeirində deyil, dünyanın döyüşkən, inqilabi poeziyasının qüdrətli nümayəndələrindən, ömrü mühacirətdə keçmiş Nazim Hikmət və Pablo Neruda, Aleks La Qumma və Mahmud Dərviş yaradıcılığı ilə bir sırada dayanır... Söhrab Tahir yaradıcılığı-xalqın mənəvi, ədəbi, ruhi birliyini yaşadan ən güclü qüvvələrdən, aramızdakı ən möhtəşəm körpülərdən biridir" **(Rüstəmxanlı 2005, s.7).** Ustad sənətkar hətta ölümüylə də millətə xidmət etmək arzusunda olduğunu bədii vəsiyyət kimi səsləndirməklə, sanki, özünün şair-mücahid obrazını tamamlamağa çalışmışdır:

Öləndə kəfənim ikiqat olsun,
Ruhum o taydadır, qəbrim bu tayda.
Dözümlü xalqıma heykəl qoyulsun,
Ortadan bölünmüş bir dəli çayda.

Bir sözlə, sovet totalitar rejiminin bədii təxəyyülü belə idarə etməyə, poetik fikri senzura altında əsarətdə saxlamağa çalışdığı bir cəmiyyətdə Azərbaycan şairləri, qələm adamları hər bir fürsətdən istifadə edərək milli istiqlal ideyasını nəinki sönməyə qoymamış, əksinə hər bir misranı şam etməklə millətin müstəqilliyə gələn yolunu işıqlandırmağı bacarmışlar.

**Ədəbiyyat**


1. Atalı İ. Söhrab Tahir üçün ayrılıq sözüm, http://yenixeber.org/edebiyyat/22773-shiqli-atali-sohrab-tahir-uchun-ayriliq-sozum.html
2.Qarayev Y.V. 1996. Tarix: yaxından və uzaqdan. Bakı, Sabah, 712 s.s.73.
3.Yenə orda, s.488
4.Yenə orda, s.73
5.Yenə orda, s.511
6. Mirəhmədov Ə.M. 1978. Yazıçılar, talelər, əsərlər. Bakı, Azərnəşr, 312 s.
7. Rüstəmxanlı S.X. 2005. Azadlığa içilən and / Söhrab Tahir Azər. Seçilmiş əsərləri, Bakı, "Şərq-Qərb", s.4-8
8.Yusifli V.Ə. 1994. Məmməd Araz dünyası. Bakı, Şur, 160 s.
9.www.anl.az/down/meqale/edebiyyat/2014/.../358971.htm


**Tanzile Rustemkhanli**

**Formation of independent thinking southern theme and idea of the unified Azerbaijan in Azerbaijani literature**

**Summary**:

The writers, philosophers and philosophers of Azerbaijan, the spiritual and senior nations, do not share the same ideas and ideas in the ideology of the nation, although the same goal is to unite around different ideas and ideologies, propose various action programs, publish scientific articles, different genres and methods for the public.

This leads to political and ideological thinking, multiculturalism in the artistic and aesthetic approach, classical pluralism and diversity of ideas, combining education with critical realism, critical realism to romanticism and generating multicolored ideas of independence in literature. The versatility of political paths leading to independence has manifested itself both in the form and in the content of the artistic embodiment. In the nineteenth century, literary councils were created in all regions of the country, there was a close relationship between them, and sometimes the same person became a member of two or more councils.

From 20th century of XIX century writers dealing with national inquiries began to form a very sophisticated way of thinking at the end of that century and the beginning of the twentieth century.

**Key words**: *historical conditions, integrity of Azerbaijan, independence, patriotism, national spirit, southern theme, national ideology.*

**Танзила Рустамханлы**

**В Азербайджанской литературе формированиииидеи независимости Южная тема и влияние идеи целостного Азербайджана.**

**Резюме:**

Писатели-прозаики Азербайджана, мыслители и философы, деятели и старцы национальной независимости неподдерживают ту же мысль и тот же путь, хотя цель та же они соединяются вокруг идеологических направлении, предлогают разные деятельные программы научных трактатах, художественно-публитестических произведениях его разными жанрами и методами старались доставлять обществу. В этом политико-идеологическом мышлении художественно-эстетическом подходе многовариантности как говорится приводит к классическому реализму и разнообразии мысли, критическое просвещение с реализмом, критического реализма с романтизмом.

Соединение литературе, в профессии создавали многообразии и многослойность в идеи независимости. Пути расширение политической независимости показывал себя в форме художественного развитие и содержании.

20 веке можно сказать, что во всех регионах страны один за другим проводились художественные встречи, между ними создавались крепкие отношения, бывало так что один и тот же человек становился членом нескольких советов.

Начиная с 20г. XIX века просветители занимающиеся поисками национальной мысли пройдя сложный , тернистый путь наконец к концу этого и в начале XX века пришли к тюркскому размышлению.

**Ключевые слова:** *исторические условия, вся азербайджанская идея, идеи независимости, патриотизм, национальный дух, южная тема, национальная идеология.*

Redaksiyaya daxil olma tarixi: 11.05.2019
Çapa qəbul olunma tarixi: 19.06.2019
Filologiya elmləri doktoru, professor Rəhim Əliyev tərəfindən çapa tövsiyə olunmuşdur